# Epoksid Məcun

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Knarr Epoksid Məcun solventsiz, epoksid əsaslı, 2 komponentli təmir və dolğu məcunudur. Taxta, metal kimi səthlərdə təmir və dolğu məcunu olaraq istifadə edilir. 23°C -də 24 saat tam qurumadan sonra cilalamaq olar. Əla kimyəvi və mexaniki müqavimətə malikdir. Şaquli səthlərdə axma olmadan qalın vurula bilər.

### Fiziki xassələri

| | | |
|---|---|---|
| **Rəng** | | Boz |
| **Qatı maddə miqdarı** | ASTM D2697-03 | 98%±2 (həcmcə) |
| **Sıxlığı (gr/sm$^3$)** | ASTM D1475-13 | 1.70±0.02 |
| **İncəltici** | | İncəldilmir |
| **Qarışım nisbəti (kütləcə)** | | Comp A - 1 /Comp B -1 |
| **Potlife** | | 65±15dəq |
| **Toxunma quruma(23°C)** | | 5±1saat |
| **Tam quruma(23°C)** | | 1həftə |

### Qarışdırma

Komponentlər verilmiş nisbətlərdə dəqiq çəkilərək qarışdırılmalıdır. Əks halda tam sərtləşmə olmayacaq və məhsul lazım olan kimyəvi və mexaniki müqaviməti göstərə bilməyəcək. Çəkilmiş komponentlər çox aşağı sürətlə elektrik qarışdırıcı ilə qarışdırılmalıdır. Çox tez qarışdırma içərisində qaz qabarcıqlarının əmələ gəlməsinə səbəb ola bilər. Tərkibləri homojen bir şəkildə qarışdırılana qədər qarışdırma davam etdirilməlidir. Bu müddət təxminən 2 ilə 5 dəqiqə olmalıdır.

Nəzərə almaq lazımdır ki, böyük miqdarda və / və ya yüksək temperaturda hazırlanan qarışıqların istifadə müddəti (potlife) qısalacaq.

### İstifadə üsulları

İş sahəsi və səth temperaturu 15°C – 30°C olmalıdır və örtük tətbiq edilməzdən əvvəl səthi pas, yağ, toz və oxşar çirklərdən təmizləmək lazımdır. Tətbiq olunan səthdə nəm olmamalıdır.

Tətbiq olunan səth metal təbəqədirsə, örtüləcək səth ISO 8501 standartına uyğun olaraq SA 2 1⁄2-dir. St 2 səviyyəsinə qədər qumlanmalı və ya ən azı St2 səviyyəsinə qədər mexaniki təmizlənməlidir.

### Sərfiyyat

Tək qatta təxminən 700g/m$^2$ sərfiyyat ilə 1mm. Quru film qalınlığı əldə edilə bilər

### Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (23$^0$C-də) 24 aydır.

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

# Epoksid Məcun

Texniki Məlumat Səhifəsi

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Məhsulun rəngi

Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

**Qeyd:** “CMT Group” MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.

**“CMT Group” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com